# VCT ÖLÇÜ MEYARI

## VCT-lərə əlverişli mühitin yaradılması və onların imkanlarının genişləndirilməsi üçün kompas

## AZƏRBAYCAN 2023

### ÖLKƏ HESABATI

BAKI

Funded by the European Union

European Center for Not-for-Profit Law

CONSULTING
Law and project management

# VCT Ölçü Meyarı 2023: Azərbaycan Ölkə üzrə hesabat

Müəllif: Emin Rzayev, “MG Consulting” MMC-nin baş hüquqşünası

"MG Consulting" MMC Azərbaycanda qeydiyyatdan keçmiş konsaltinq şirkətidir, qeyri-kommersiya hüququ üzrə ixtisaslaşmış və yerli və xarici müştərilərinə, o cümlədən diplomatik nümayəndəliklərə və beynəlxalq təşkilatlara müxtəlif hüquqi xidmətlər göstərir. "MG Consulting" QHT qanunverciliyinin, kənd təsərrüfatı və biznes, o cümlədən sosial müəssisələr ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi üzrə texniki ekspertiza təqdim edir. O, təlimlərin təşkili, ölkə hesabatlarının və qanunvericiliyi oxucular üçün anlaşıqlı şəkildə izah edən müxtəlif nəşrlərin hazırlanmasında böyük təcrübəyə malikdir. O həmçinin izləyiciləri arasında 1.400-dən çox QHT fəalı olan “QHT qanunvericiliyi” (NGO legislation) adlı Facebook səhifəsini və qrupunu idarə edir.

Qeyri-Kommersiya Hüququ üzrə Avropa Mərkəzi (ECNL) Fondu vətəndaş cəmiyyətinə təsir edən siyasət və qanunlar sahəsində aparıcı Avropa resurs və tədqiqat mərkəzidir. ECNL bilik bazası  yaratmaqla yanaşı,  tərəfdaşların imkanlarını genişləndirir, vətəndaş azadlıqlarını yaradan, qoruyan və genişləndirən standartların müəyyən edilməsinə kömək edir.

Müəlliflər bu nəşrə yardım göstərənlərin hamısına minnətdarlıqlarını ifadə edirlər.

“VCT Ölçü Meyarı: VCT-lərə əlverişli mühitin yaradılması və onların imkanlarının genişləndirilməsi üçün kompas” layihəsi ECNL və onun aşağıdakı tərəfdaşları tərəfindən həyata keçirilir: Ermənistanda – Beynəlxalq Şəffaflıq Təşkilatının Antikorrupsiya Mərkəzi; Azərbaycanda – MG Consulting MMC; Gürcüstanda – Vətəndaş Cəmiyyəti İnstitutu; Moldovada – Promo-LEX Assosiasiyası; və Ukraynada – Ukrayna Müstəqil Siyasi Araşdırmalar Mərkəzi (UCIPR).

Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Nəşrin məzmununa görə yalnız müəlliflər məsuliyyət daşıyırlar və o, heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirən sənəd kimi qəbul edilə bilməz.

© 2023 – Müəlliflik hüquqları ECNL Fondu və “MG Consulting” MMC-yə məxsusdur. Bütün hüquqlar qorunur.

# MÜNDƏRİCAT


**ABREVİATURALAR VƏ AKRONİMLƏR** 4

**I. QISA İCMAL** 6

**II. ÖLKƏ GÖSTƏRİCİLƏRİ (AZƏRBAYCAN RƏQƏMLƏRDƏ)** 9

**III. QƏNAƏTLƏR** 11

3.1 Birləşmək azadlığı 11
3.3 Maliyyəyə çıxış 15
3.4 Dinc toplaşmaq azadlığı 17
3.5 Qərarların qəbulunda iştirak hüququ 19
3.6 İfadə azadlığı 21
3.7 Şəxsi toxunulmazlıq hüququ 23
3.8 Dövlətin müdafiəni təmin etmək vəzifəsi 25
3.9 Dövlətin dəstəyi 27
3.10 Dövlət-VCT əməkdaşlığı 30
3.11 Rəqəmsal hüquqlar 32

**IV. ƏSAS PRİORİTETLƏR** 34

**V. METODOLOGİYA** 36

# ABREVİATURALAR VƏ AKRONİMLƏR

| | |
|---|---|
| Sİ | Süni intellekt |
| ÇPY/TM-ə qarşı mübarizə | Çirkli pulların yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə |
| ASAN | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi |
| AZN | Azərbaycan manatı |
| AŞ | Avropa Şurası |
| İXM | İnzibati Xətalar Məcəlləsi |
| VCT | Vətəndaş cəmiyyəti təşkilatı |
| KSM | Korporativ sosial məsuliyyət |
| ŞT | Şərq Tərəfdaşlığı |
| İHAK | İnsan hüquqları haqqında Avropa Konvensiyası |
| ECSOFT | "Şəffaflıq naminə vətəndaş cəmiyyəti təşkilatlarının imkanlarının genişləndirilməsi" layihəsi |
| AİHM | Avropa İnsan Hüquqları Məhkəməsi |
| Aİ | Avropa İttifaqı |
| EUR | Avro |
| FATF | Maliyyə Tədbirləri üzrə İşçi Qrupu |
| GPON | Giqabit Passiv Optik Şəbəkə |
| ICNL | Qeyri-Kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəz |
| MK | Məcburi köçkün |
| MN | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi |
| ƏN | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi |
| QHT | Qeyri-hökumət təşkilatı |
| QHT-lərə Dəstək Agentliyi | QHT-lərə Dövlət Dəstəyi Agentliyi |
| AHT | Açıq Hökumət Tərəfdaşlığı |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |

| | |
|---|---|
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| USAID | Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Agentliyi |
| USD | ABŞ dolları |
| ƏDV | Əlavə dəyər vergisi |

# I. QISA İCMAL

## 1-ci hissə. Ölkə konteksti və vətəndaş cəmiyyəti mühiti üçün aktual olan mühüm tendensiyalar

2022-ci ilin dekabrından 2023-cü ilin noyabrınadək olan dövr ərzində Azərbaycan ölkənin vətəndaş cəmiyyəti təşkilatlarının (VCT-lər) ekosisteminə həm müsbət, həm də mənfi təsir göstərən bir sıra hadisələrlə üzləşmişdir. Bir tərəfdən QHT-lərə Dəstək Agentliyi qrant müsabiqələri təşkil etmiş, illik əsasda QHT-lərin İnkişaf və Mübadilə proqramını həyata keçirmiş, VCT mühitinin inkişafı ilə bağlı strateji planları müzakirə etmiş, digər tərəfdən isə qanunvericilikdə və praktikada mövcud olan problemlərlə bağlı əhəmiyyətli müsbət irəliləyiş əldə edilməmişdir. Əvəzində VCT-lər üçün daha yaxşı imkanlar təqdim etməyən və onlara mənfi təsir göstərə bilən bir neçə qanun qəbul edilmişdir. Bu qanunlara misal olaraq 31 yanvar 2023-cü il tarixində qüvvəyə minən, risk əsaslı yanaşma ilə bağlı narahatlıq doğuran və VCT-lərin üzərinə lazımsız öhdəliklər qoyan "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" yeni Qanunu[1] göstərmək olar. 25 aprel 2023-cü il tarixindən İnzibati Xətalar Məcəlləsinin (İXM) 381-ci maddəsinin yeni redaksiyası qüvvəyə minib.[2] Yenidən işlənmiş 381-ci maddə pozuntulara görə məsuliyyət dairəsini genişləndirir və media orqanlarına qarşı daha sərt və daha yüksək cəzalar tətbiq edir ki, bu da öz növbəsində media fəaliyyəti ilə məşğul olan VCT-lərə və vətəndaş cəmiyyəti üzvlərinə birbaşa təsir göstərir. 2023-cü il yanvarın 11-də "Siyasi partiyalar haqqında" yeni Qanun qüvvəyə minib və il ərzində bəzi siyasi partiyalar qanunun tələblərinə uyğun olaraq özlərini buraxılmış elan ediblər. Hökumətin əsas müxalifət partiyalarını qeydiyyatdan keçirməkdən imtina edəcəyi ilə bağlı narahatlıqlar var idi. Lakin 2023-cü ilin sentyabrında üç əsas müxalifət partiyası olan "Müsavat", Respublikaçı Alternativ" və "Azərbaycan Xalq Cəbhəsi" ƏN-də rəsmi olaraq siyasi partiya kimi qeydiyyatdan keçib.[3]

Müsbət məqam ondan ibarətdir ki, 2023-cü il aprelin 1-dən Vergi Məcəlləsinə media subyektləri üçün güzəştləri özündə əks etdirən, onların media məhsullarını və əlaqəli xidmətlərini qısa müddətə ƏDV-dən azad edən dəyişikliklər qüvvəyə minib.[4] Bundan başqa, 2023-cü il avqustun 28-də Azərbaycanda VCT-lərlə əməkdaşlığı nəzərdə tutan "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı" qəbul edilib.

[1] https://president.az/az/articles/view/58762
[2] https://president.az/az/articles/view/59485
[3] https://qafqazinfo.az/news/detail/musavat-ve-axcp-de-qeyde-alindi-yenilenib-411679
[4] https://president.az/az/articles/view/59280

17 avqust 2023-cü il tarixində AHT-nin Rəhbər Komitəsi yekdilliklə Azərbaycanın AHT-yə üzvlüyünü həmişəlik dayandırmağa və ləğv etməyə razılaşmışdır[5] ki, bu da VCT-lər tərəfindən Azərbaycanın açıq hökumət istiqamətində beynəlxalq əməkdaşlığının heç də yaxşı əlaməti hesab edilməmişdir.

Yuxarıda qeyd olunan tənzimləmə dəyişiklikləri ilə yanaşı, son vaxtlar bəzi hadisələr, məsələn, hökumət rəsmilərini tənqid edən Bəxtiyar Hacıyevin, Gədəbəy rayonunun Söyüdlü kəndindəki etirazçıların, hökuməti tənqid edən ictimai fəalların[6] və iqtisadçı alim Qubad İbadoğlunun həbsi vətəndaş cəmiyyəti arasında dinc toplaşmaq azadlığı və ifadə azadlığı ilə bağlı mövcud problemlərin aradan qaldırılması zərurəti ilə bağlı narahatlıqlar yaradıb.

## 2-ci hissə. Vətəndaş cəmiyyəti mühitində əsas dəyişikliklər

2023-cü ildə vətəndaş cəmiyyəti sektorunda əvvəlki illə müqayisədə ciddi dəyişiklik baş verməyib. VCT-lər xüsusən xarici maliyyə vəsaitlərinə məhdud çıxış imkanı ilə fəaliyyət göstərməkdə davam edirlər. Qrantların, xidmət müqavilələrinin və ianələrin qeydiyyatı ilə bağlı hüquqi məhdudiyyətlər VCT-lərin qeydiyyatı ilə bağlı problemlərlə yanaşı hələ də mövcuddur. Ümumiyyətlə, dövlət qurumlarının təşəbbüsü ilə baş verən qərarların qəbulu prosesinə VCT-lərin böyük təsiri yoxdur. Ölkənin ictimai-siyasi həyatında baş verən hadisələr də onu göstərir ki, sərbəst toplaşmaq, ifadə azadlığı ilə bağlı problemlər hələ də qalmaqdadır. Hökumət xaricdən maliyyələşməyə şübhə ilə yanaşır və hesab edir ki, vətəndaş cəmiyyəti təşkilatları dövlətin maraqlarına xidmət etməlidir və xaricdən maliyyələşməni milli təhlükəsizlik və dövlətin maraqlarına təhdid kimi görür. Hökumət vətəndaş cəmiyyəti təşkilatlarını böyük ölçüdə nəzarətdə saxlamağa çalışır.

Nəticədə "ifadə azadlığı", "dinc toplaşmaq azadlığı", "dövlətin müdafiəni təmin etmək vəzifəsi" sahələri üzrə ballar azalıb, digər sahələr üzrə ballar dəyişməz qalıb.

## 3-cü hissə. Əsas prioritetlər

1. ƏN, Nazirlər Kabineti və Milli Məclis müddətləri azaltmaqla və ƏN tərəfindən subyektiv yanaşmanı aradan qaldırmaqla VCT-lərin qeydiyyat prosedurunu sadələşdirməlidirlər;

[5] https://www.opengovpartnership.org/news/azerbaijan-permanently-suspended-from-the-open-government-partnership/
[6] https://qafqazinfo.az/news/detail/ictimai-feal-saxlanildi-408202 https://jam-news.net/arrests-in-soyudlu/ https://qafqazinfo.az/news/detail/qiyas-ibrahimov-hebs-olundu-404463

2. ƏN və Milli Məclis VCT-lərin qeydiyyat prosesi və fəaliyyəti zamanı kommersiya qurumları ilə müqayisədə onlarla bərabər əsasda rəftar edilməsini təmin etməlidirlər;
3. Milli Məclis VCT-lərin hesabat öhdəliklərini onların ölçüsünə və dövriyyəsinə görə sadələşdirməlidir;
4. Prezident Administrasiyası VCT-lərin bölgələrdə tədbirlər keçirmək üçün təcrübədə mövcud olan icazə alması tələbini ləğv etməlidir;
5. ƏN və Nazirlər Kabineti qrantların və ianələrin qeydiyyatını sadələşdirməlidirlər (məsələn, qeydiyyatla bağlı qərarlarda subyektivliyi aradan qaldırmalı və prosesin asanlıqla əlçatan və sürətli olması üçün onu rəqəmsallaşdırmalıdırlar və s.);
6. Milli Məclis və Nazirlər Kabineti VCT-lərin xidmət müqavilələrinin qeydiyyata alınması tələbini ləğv etməlidirlər; və
7. Milli Məclis və Nazirlər Kabineti VCT-lərin kiçik ianələr haqqında hesabat verməsi zərurətini (məsələn, il ərzində hər donorun nağd pul ianəsinin 200 AZN/110 EUR məbləğini keçməməsi tələbini) aradan qaldırmalıdırlar.

# II. Ölkə göstəriciləri (Azərbaycan rəqəmlərdə)

## Əsas məlumatlar

**Əhali (1 yanvar 2023-cü il tarixinədək):** 10.127.100[7] | **Adambaşına düşən ÜDM (2023-cü ilin yanvar-avqust ayları üzrə):** 78.950 manat (44.081,50 EURO)[8] | **VCT-lərin sayı (2021-ci ilin avqust ayınadək):** 4.766[9] | **Hər 10.000 nəfərə düşən VCT-lərin sayı:** 4,7 | **VCT üçün qeydiyyat haqqı (2020-ci ilin sentyabr ayına olan məlumat):** 15 AZN[10] (təxminən 6 EUR) | **"Dünyada azadlıq" hesabatında statusu (2023):** 9/100 (qeyri-azad)[11] | **"Dünya mətbuat azadlığı indeksi"ndə göstəricisi (2023):** 39,93 (180 ölkə arasında 151-ci)[12]

| | |
|---|---|
| Ölkə üzrə bal: | 4.0 |
| Qanunvericilik: | 4.4 |
| Praktika: | 3.6 |

*Ballar 1-7 aralığındadır, 1 mümkün ən aşağı balı (extremal əlverişsiz – avtoritar mühit) və 7 mümkün ən yüksək balı (extremal əlverişli mühit) göstərir.*

| Sahələr | Ümumi | Qanunvericilik | Praktika |
|---|---|---|---|
| Birləşmək azadlığı | **4.0** | 4.5 | 3.4 |
| Bərabər rəftar | **3.6** | 3.8 | 3.4 |
| Maliyyəyə çıxış | **3.0** | 3.2 | 2.8 |
| Dinc toplaşmaq azadlığı | **3.7** ↓ | 4.4 | 3.0 ↓ |
| Qərarların qəbulunda iştirak hüququ | **4.6** | 5.0 | 4.1 |
| İfadə azadlığı | **3.9** ↓ | 4.6 ↓ | 3.1 ↓ |
| Şəxsi həyatın toxunulmazlığı hüququ | **4.4** | 4.9 | 3.8 |
| Dövlətin müdafiəni təmin etmək vəzifəsi | **4.4** ↓ | 4.7 ↓ | 4.1 ↓ |

---

[7] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/demography/ap/.
[8] Dünya Bankı, https://www.stat.gov.az/news/macroeconomy.php?page=1&lang=en
[9] Report.az, https://report.az/daxili-siyaset/azerbaycandaki-siyasi-partiya-qht-ve-kiv-lerin-sayi-aciqlanib/.
[10] "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/2860.
[11] "Freedom House" təşkilatı, https://freedomhouse.org/country/azerbaijan/freedom-world/2023
[12] "Sərhədsiz reportyorlar" təşkilatı, Dünya mətbuat azadlığı indeksi-2023, https://rsf.org/en/country/azerbaijan

| | | | |
|---|---|---|---|
| Dövlətin dəstəyi | 4.1 ↓ | 4.4 | 3.9 |
| Dövlət-VCT əməkdaşlığı | 4.0 ↓ | 4.3 | 3.9 |
| Rəqəmsal hüquqlar | 4.6 | 4.8 | 4.3 |

# III. QƏNAƏTLƏR

## 3.1 Birləşmək azadlığı

**Sahə üzrə ümumi bal: 4.0/ 7**

**Qanunvericilik: 4.5/ 7** | **Praktika: 3.4/ 7**

Ədliyyə Nazirliyi ümumiyyətlə VCT-lərin qeydiyyata alınmasında maraqlı deyil və tez-tez rəsmi qeydiyyat üçün sənədlər təqdim edən VCT-lərə əsassız imtina məktubları verir. Hesabat dövründə heç bir əhəmiyyətli irəliləyiş baş verməyib və hökumət əvvəlki hesabatda qeyd olunan heç bir tövsiyəni nəzərə almayıb. Bunun əvəzinə ƏN ABŞ-dan olan bir QHT-nin (CNFA) Azərbaycanda rəsmi qeydiyyatı və fəaliyyəti üçün zəruri olan müqavilənin müddətini uzatmayıb.[13] Bu sahədə ciddi irəliləyiş olmadığına görə ballar əvvəlki ildə olduğu kimi qalır.

### 1) Ölkənin siyasi həyatında iştirak etmək istəyən VCT-lər "Siyasi partiyalar haqqında" yeni Qanunun sərt tələbləri ilə üzləşirlər.

2023-cü il yanvarın 11-də "Siyasi partiyalar haqqında" yeni Qanun qüvvəyə minib. Onun müddəalarının qəbulu nəticəsində il ərzində Müstəqil Xalq Partiyası (MXP), Azərbaycan Milli Demokrat Partiyası (AMDP), Azərbaycan Liberal Demokrat Partiyası (ALDP), Milli Birlik Partiyası (MBP) kimi 30-dan çox siyasi partiya[14] özünü buraxılmış elan edib. 2023-cü il martın 13-də Avropa Şurasının Venesiya Komissiyası və ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) siyasi partiyalar haqqında yeni qanunu nəzərdən keçirərək birgə rəy yaymış və bildirmişlər ki, "...yeni qanunla ölkədə plüralizmə daha da çəkindirici təsir göstərmək riski daşıyan bir sıra olduqca problemli yeni müddəalar qəbul edilib".[15] Buna baxmayaraq, 2023-cü ilin sentyabrına olan məlumata görə, mövcud üç əsas müxalifət partiyası - "Müsavat", "Respublikaçı Alternativ" və "Azərbaycan Xalq Cəbhəsi" ƏN-də rəsmən siyasi partiya kimi yenidən qeydiyyatdan keçmişdir.[16] Rəsmi qeydiyyat üçün ən azı 5000 üzvün olması tələbi həm də VCT-lərin və ya vətəndaş cəmiyyəti üzvlərinin siyasi arenaya keçməsinə və ölkənin siyasi həyatında daha fəal iştirak etməsinə maneələr yaradır.

[13] CNFA ilə müsahibə zamanı əldə edilmiş Ədliyyə Nazirliyinin rəsmi məktubu.
[14] https://www.amerikaninsesi.org/a/7200165.html
[15] https://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2023)007-e
[16] https://qafqazinfo.az/news/detail/musavat-ve-axcp-de-qeyde-alindi-yenilenib-411679

### 2) Ölkədə daimi yaşayış yeri olmayan xarici vətəndaşlar rəsmi olaraq VCT yarada bilməzlər, təsisçi olmaq istəyən yerli vətəndaşlar isə uzun prosedurlarla üzləşirlər.

“Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Qanun (QHT Qanunu) VCT-lərin təsisçisi və qanuni nümayəndəsi olmaq üçün xarici vətəndaşların daimi yaşayış yeri əldə etməsini tələb edir.[17] Bu tələb kommersiya qurumları üçün mövcud deyil və xarici vətəndaşlara qarşı ayrı-seçkilik xarakteri daşıyır və beynəlxalq standartlara cavab vermir. Eyni zamanda, VCT yaratmaq istəyən Azərbaycan vətəndaşları qeydiyyat prosesinin uzun sürməsindən (bəzən bir neçə il davam edir) şikayət edirlər. Onlar həmçinin müxtəlif əsaslarla çoxsaylı rədd cavabları ilə, müxtəlif dövlət orqanlarından və ya yerli icra hakimiyyətlərindən dəstək məktublarının təqdim edilməsi barədə yazılmamış qeyri-rəsmi tələblərlə və s. ilə üzləşirlər.[18] Uzun sürən qeydiyyat prosesi çox vaxt VCT-lərin öz məqsəd və fəaliyyətlərini yerinə yetirməsinə mane olur, çünki onlar ilk növbədə öz maliyyə mənbələrini dövlət orqanlarında qeydiyyatdan keçirməlidirlər, VCT-nin qeydiyyatı olmadan bunu etmək mümkün deyil. 1 noyabr 2022-ci il - 30 avqust 2023-cü il tarixləri arasında Ədliyyə Nazirliyi 52 QHT-ni dövlət qeydiyyatına alıb, eləcə də xarici QHT-nin 1 filialı qeydiyyata alınıb. Həmin dövrdə Ədliyyə Nazirliyi 3 QHT-nin nümayəndəliyinin və 1 xarici QHT-nin ləğvini də həyata keçirib. Bundan əlavə, reyestrə daxil edilmiş bir QHT-nin fəaliyyəti müvəqqəti olaraq dayandırılıb. Eyni dövrdə heç bir təşkilata nə xəbərdarlıq edilib, nə də cərimə tətbiq olunub.[19]

### 3) Təcrübədə VCT-lər üçün qeyri-rəsmi “icazə” sistemi mövcuddur.

VCT-lərin hələ də üzləşdiyi əsas problemlərdən biri regionlarda tədbirlər keçirmək üçün Prezident Administrasiyasından icazə almaq kimi yazılmamış qeyri-rəsmi prosedurdur. Prosedur Azərbaycanın regionlarında Prezident Aparatı tərəfindən tətbiq edilir.[20] Bu cür təcrübə VCT-lərə layihələrin icrası çərçivəsində regionlarda hədəf qrupları ilə görüşlər, dəyirmi masalar və s. kimi istənilən növ tədbirləri effektiv şəkildə təşkil etməyə mane olur.

### 4) Qeyri-mütənasib cəzalar yalnız VCT-lərə münasibətdə mövcuddur.

Yalnız VCT-lərə şamil olunan konkret cəza sanksiyaları var (və bəziləri olduqca yüksəkdir), məsələn: həm xarici, həm də yerli mənbələrdən qrantların, ianələrin və ya xidmət müqavilələrinin qeydiyyata alınmaması; illik maliyyə hesabatlarının təqdim edilməməsi; könüllülərlə müqavilə imzalanmaması; və nağd ianələrin qəbulu üçün müəyyən edilmiş həddi aşmaq cəzalandırılır. Bu konkret cəzalar VCT-lərin maliyyə imkanları və pozuntuların xarakteri ilə qeyri-mütənasib olduğundan və VCT-lər üçün əhəmiyyətli əməliyyat və maliyyə

[17] QHT Qanununun 9.1-1-ci maddəsi.
[18] Hədəf qrupları ilə müzakirələr.
[19] ƏN-in rəsmi məktubu.
[20] Hədəf qrupları müzakirələr.

riskləri yaratdığından beynəlxalq standartlara uyğun gəlmir. Kommersiya qurumları üçün isə bu cəza sanksiyaları mövcud deyil.

### 5) VCT-lərin üzərinə ağır hesabat öhdəlikləri qoyulur.

VCT-lərin fəaliyyətinə digər ciddi maneə ağır hesabat yüküdür. VCT-lər xarici mənbələrdən əldə edilən qrantları, ianələri, xidmət müqavilələrini qeydiyyata aldırmalıdırlar. Bu, birləşmək azadlığına dair beynəlxalq standartlara uyğun gəlmir, çünki bu tələblər ağırdır, həddindən artıqdır və VCT-lərin ölçüsünə və əməliyyat imkanlarına uyğun gəlmir. Məsələn, yuxarıda qeyd olunan hesabat öhdəliklərinə əlavə olaraq VCT-lər həm də müntəzəm vergi və sosial təminat hesabatları ilə birlikdə illik maliyyə hesabatı təqdim etməlidirlər.

**1-ci sahə üzrə xüsusi tövsiyələr:**

- Milli Məclis əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin VCT-lər təsis etmək və onları idarə etmək hüquqlarını təmin etməlidir;
- ƏN, Nazirlər Kabineti və Milli Məclis müddətləri azaltmaqla və ƏN tərəfindən subyektiv yanaşmanı aradan qaldırmaqla VCT-lərin qeydiyyat prosedurunu sadələşdirməlidir;
- Milli Məclis ölçüsü və dövriyyəsindən asılı olaraq VCT-lərin hesabat öhdəliklərini sadələşdirməlidir; və
- Prezident Administrasiyası regionlarda tədbirlərin keçirilməsi üçün icazə almaq tələbini ləğv etməlidir.

## 3.2 Bərabər rəftar

**Sahə üzrə ümumi bal: 3.6/ 7**

| Qanunvericilik: 3.8/ 7 | Praktika: 3.4/ 7 |
|---|---|

VCT-lər həm qanunvericilikdə, həm də praktikada kommersiya qurumları ilə müqayisədə bərabər rəftara məruz qalmır. Qeydiyyat prosesi, hesabat öhdəlikləri və maliyyə vəsaitlərinə çıxış VCT-lər üçün kommersiya qurumlarından daha mürəkkəbdir. Problemlər hələ də mövcuddur və hökumət əvvəlki hesabatda göstərilən heç bir tövsiyəni yerinə yetirməyib və ya nəzərə almayıb. Hesabat dövründə bu sahədə heç bir dəyişiklik baş vermədiyindən ballar dəyişməyib.

### 1) Ədliyyə Nazirliyi kommersiya qurumları ilə müqayisədə VCT-lərə qarşı ayrı-seçkilik xarakterli yanaşma tətbiq edir.

Kommersiya qurumunun yaradılması üçün Vergi Xidmətində qeydiyyat bir gündən üç günə qədər davam edir. Kommersiya qurumları ilə müqayisədə VCT-lərin qeydiyyatı Ədliyyə Nazirliyində otuz günə qədər vaxt aparır. Praktikada bu, illərlə davam edə bilər. Kommersiya qurumunu qeydiyyata almaqdan imtina yalnız nadir hallarda baş verir (məsələn, hüquqi adı üst-üstə düşən müəssisə artıq mövcud olduqda). Bununla belə, VCT-lər üçün qeydiyyatdan imtinanın səbəbləri sonsuz görünür (məsələn, idarə heyətinin formalaşdırılması, VCT-nin missiyası, gəlir mənbələri və s. ilə bağlı məsələlər) ki, bu da VCT-lərin qeydiyyatını və fəaliyyətini və beləliklə həm də məqsədlərinə çatmasını çox çətinləşdirir.

### 2) Hökumət müəyyən növ VCT-lərə qeyri-bərabər yanaşır.

Sosial xidmət təminatçılarına və gənclər təşkilatlarına hökumət insan hüquqları sahəsində fəaliyyət göstərən VCT-lərə nisbətən daha yaxşı münasibət göstərir (dövlət vəsaitlərinə çıxış, mediada daha yaxşı işıqlandırılma, dövlət obyektlərindən istifadə və s. onlar üçün daha asandır). Yerli VCT-lərlə müqayisədə xarici VCT-lərə qarşı belə əlverişli rəftar o qədər də nəzərə çarpmır. Bu, Azərbaycanda fəaliyyət göstərən xarici VCT-lərin çox az olması ilə izah oluna bilər.[21] Bəzi VCT-lərə hökumət digərlərindən daha əlverişli münasibət göstərir. Nəticədə bu qrup VCT-lər hökumətlə məsləhətləşmələrə daha çox dəvət olunur və regionlarda tədbirlərin keçirilməsində daha az problemlə üzləşirlər. Bəzi VCT-lər dövlət orqanları nəzdində yaradılan çoxsaylı ictimai şuralarda təmsil olunur, digər VCT-lər isə ictimai şuralarda təmsil olunmur ki, bu da ictimai şuraların effektivliyini şübhə altına alır. VCT-lərə qarşı bu əlverişsiz və ümumən ayrı-seçkilik xarakterli rəftar qalmaqda davam edir.

## 2-ci sahə üzrə xüsusi tövsiyələr:

- ƏN və Milli Məclis VCT-lərə münasibətdə qeydiyyat prosesində və fəaliyyətləri zamanı kommersiya qurumları ilə müqayisədə bərabər rəftarı təmin etməlidirlər; və
- Hökumət və Milli Məclis məsləhətləşmə proseslərində müxtəlif VCT-lərin bərabər əsasda iştirakını təmin etməlidirlər.

[21] Hədəf qrupları ilə müzakirələr.

## 3.3 Maliyyəyə çıxış

**Sahə üzrə ümumi bal: 3.0/ 7**

| Qanunvericilik: 3.2/ 7 | Praktika: 2.8/ 7 |
|---|---|

Azərbaycanda vətəndaş cəmiyyəti təşkilatları (VCT-lər) xarici maliyyə vəsaitlərinə çıxış əldə etməkdə əhəmiyyətli məhdudiyyətlərlə üzləşməkdə davam edir. Maliyyə resurslarının qeydiyyatı üçün mövcud hüquqi və praktiki tələblər həddindən artıq sərtdir. Xarici mənbələrdən əldə edilən bütün gəlirlər Ədliyyə Nazirliyində (ƏN) qeydiyyata alınmalıdır. Qanunvericilik birbaşa subsidiyalar, sosial müqavilələr və qrantlar kimi müxtəlif dövlət qurumlarından bir sıra dövlət maliyyələşdirmə mexanizmlərini təklif edir. Hərçənd ki, hökumət tərəfindən ayrılan qrantlar VCT-lər üçün kifayət etmir və adətən onların ehtiyaclarını ödəmir.[22] Bundan əlavə, VCT-lərə iqtisadi fəaliyyətlər vasitəsilə gəlir əldə etməyə, ianələr və üzvlük haqları almağa icazə verilir.

Hökumət maliyyələşməyə çıxışla bağlı əvvəlki VCT Ölçü Meyarı hesabatındakı tövsiyələrin heç birini yerinə yetirməyib. Nəticə etibarilə, 2022-ci ildəki tövsiyələr 2023-cü il üçün də aktual olaraq qalır.

**1) VCT-lər qrantlar, xidmət müqavilələri və xarici mənbələrdən ianə əldə etməkdə hüquqi maneələrlə üzləşirlər.**

QHT Qanunu, "Qrantlar haqqında" Qanun kimi bir sıra qanunlar xarici mənbələrdən qrantlar, xidmət müqavilələri və bütün növ ianələr formasında xarici vəsait alan VCT-lərin Ədliyyə Nazirliyində qeydiyyatdan keçməsini tələb edir.[23] Bu, VCT-lərin maliyyə vəsaitlərinə çıxışında və layihələrinin həyata keçirilməsində əsas maneədir, çünki ƏN subyektiv əsaslarla qrantları, xidmət müqavilələrini və ianələri qeydiyyata almaqdan imtina edir. Həmçinin tənzimləyici aktlara uyğun olaraq onlar bəzən VCT-lər üçün vaxt aparan və bürokratik problemə çevrilən, layihənin icrasında gecikmə və ya hətta layihənin uğursuzluğu ilə nəticələnən çoxsaylı sənədlər toplayırlar. Ona görə ki, VCT-lər xaricdən vəsait alsalar da, qeydiyyat olmadan heç bir bank əməliyyatı apara bilmirlər. Bu cür təcrübə VCT-lərin effektiv fəaliyyət göstərməsinə mane olur. Nazirlər Kabinetinin 4 aprel 2023-cü il tarixli 97 nömrəli qərarına əsasən,[24] qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya

---

[22] Hədəf qrupları ilə müzakirələr.
[23] https://e-qanun.az/framework/3527 https://e-qanun.az/framework/31456 https://e-qanun.az/framework/31255
[24] https://nk.gov.az/az/senedler/qerarlar/azarbaycan-respublikasi-nazirlar-kabinetinin-%E2%80%9Cqeyri-hokumat-taskilatlari--habela-xarici-dovlatlarin--6905

nümayəndəlikləri tərəfindən xarici maliyyə mənbələri hesabına işlərin görülməsinə aid sənədlərin və ya məlumatların “Elektron hökumət” informasiya sistemi vasitəsilə əldə edilməsi mümkün olduqda, xarici donorlar tərəfindən Azərbaycan ərazisində qrant vermək hüququnun əldə edilməsi və xidmətlərin göstərilməsi və ya işlərin yerinə yetirilməsi haqqında müqavilələrin qeydiyyata alınması üçün zəruri olan sənədlər ərizəçidən tələb olunmayacaq. Beləliklə, proses daha az vaxt aparacaq və müraciət edənlərin üzərinə daha az yük düşəcək.

### 2) Anonim ianələr qadağandır.

Qanun ianələr formasında maliyyələşməyə çıxış imkanına bir sıra qeyri-mütənasib və məhdudiyyətlər qoyur. İanələr formasında daxil olan vəsaitə çıxışın olmaması bəzi VCT-lərin fəaliyyətinə ciddi şəkildə mane olur. Məhdudiyyətlər aşağıdakılardır: (i) anonim ianələr qadağandır; (ii) əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ianələri qadağandır; (iii) 200 AZN-dən çox (təxminən 110 EUR) nağd pul ianələri qadağandır; (iv) hər donorun pasport məlumatları, məsələn, 20 qəpiklik ianə üçün belə, qeydə alınmalı və MN-ə təqdim edilməlidir; və (v) xeyriyyə təşkilatı[25] statusu əldə etmək üçün qanunda aydın prosedur olmamasına baxmayaraq, yalnız xeyriyyə təşkilatları nağd ianə ala bilər.[26] Hesabat dövründə ƏN ümumilikdə 738 ianə qeydə alıb.[27] Bu onu göstərir ki, Ədliyyə Nazirliyi ianələri qrantlardan daha asan qeydiyyata alır (ehtimal ki, onların kiçik ölçüsü və ya milli mənşəyinə görə).

### 3) Dövlət VCT-lərin digər gəlir mənbələrinin dəstəklənməsinə yönələn qanunların hazırlanmasını nəzərdə tutmayıb.

VCT-lərin bunda maraqlı olmasına baxmayaraq,[28] dövlət VCT-lər üçün maliyyə mənbələrini diversifikasiya etmək üçün qanunverici və ya praktiki baza yaratmayıb. Buna vətəndaşlardan vəsait toplama, ianə qutuları və s. kimi müxtəlif maliyyələşmə mexanizmlərindən istifadə etməklə nail olmaq olar ki, bu da VCT-lərin özləri üçün maliyyə dayanıqlığı yaratmaq imkanlarına mane olur.

### 3-cü sahə üzrə xüsusi tövsiyələr:

- ƏN və Nazirlər Kabineti qrant və ianələrin qeydiyyatını sadələşdirməlidir (məsələn, qeydiyyat üçün qərarlarda subyektivlik aradan qaldırılmalı, proses asanlıqla əlçatan və sürətli olması üçün rəqəmsallaşdırılmalıdır və s.);
- Milli Məclis və Nazirlər Kabineti xidmət müqavilələrinin qeydiyyata alınması tələbini ləğv etməlidirlər;

[25] Azərbaycanda xeyriyyə təşkilatı statusunun alınması proseduru yoxdur. Təcrübədə nizamnamə məqsədləri “xeyriyyəçiliyi” özündə ehtiva edən VCT-lər “xeyriyyə təşkilatları” adlanır.
[26] QHT Qanununun 24-1-ci maddəsi; İnzibati Xətalar Məcəlləsinin 465-ci maddəsi.
[27] ƏN-in rəsmi məktubu.
[28] https://www.qht.az/details/az/18072

- Milli Məclis əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin VCT-lərə ianə vermək hüququnu təmin etməlidir;
- Milli Məclis və hökumət ianə qutularının istifadəsinin tənzimlənməsi üçün hüquqi bazanı təmin etməli və donorun müəyyən edilməsini çətin və ya qeyri-mümkün edə biləcək digər mexanizmlərin istifadəsinə icazə verməlidirlər;
- Milli Məclis və Nazirlər Kabineti kiçik ianələr (məsələn, hər donor və hər il üzrə 200 AZN-dək (təxminən 110 EUR) və ya daha artıq) barəsində hesabat vermək tələbini aradan qaldırmalıdırlar; və
- Milli Məclis kiçik ianələrin (məsələn, hər donor və hər il üzrə 200 AZN-dək (təxminən 110 EUR)) anonim qaydada verilməsinə qoyulan qadağanı ləğv etməlidir.

## 3.4 Dinc toplaşmaq azadlığı

**Sahə üzrə ümumi bal: 3.7/ 7**

| Qanunvericilik: 4.4/ 7 | Praktika: 3.0/ 7 |
|---|---|

Azərbaycanda dinc toplaşmaq azadlığı həssas mövzu olaraq qalır. VCT-lərin sərbəst toplaşmaq azadlığı qanunla məhdudlaşdırılmasa da, onlar praktikada maneələrlə üzləşirlər. VCT-lər paytaxt Bakıda dinc toplaşmaq hüququndan regionlara nisbətən daha sərbəst istifadə edirlər. Bu, regionlarda tədbirlərin keçirilməsi üçün icazə almaq üçün qeyri-rəsmi tələblə bağlıdır. Gədəbəyin Söyüdlü kəndində etiraz aksiyası kimi vətəndaşların dinc toplaşmaq azadlığının həyata keçirilməsinə mane olan neqativ nümunələrə görə bu sahədə ümumi xal azalıb, bu isə öz növbəsində VCT-vətəndaş münasibətlərinə mənfi təsir göstərə bilər, çünki VCT-lər hökumətdən mənfi reaksiya almaqdan ehtiyat etdikləri üçün Söyüdlü kəndindəki vətəndaşlarla işləməkdən çəkinə bilər. Buna görə də, bu sahədə təcrübə üçün bal keçən ilki 3,2-dən bu il 3,0-a enmişdir.
Hökumət əvvəlki hesabatda müəyyən edilmiş tövsiyələri nəzərə almayıb və Azərbaycanda sərbəst toplaşmaq azadlığı ilə bağlı əlverişsiz vəziyyət davam edir. Nəticədə, bu sahədə tövsiyələr əvvəlki hesabat dövründə olduğu kimi qalır.

### 1) Bildiriş proseduru fərdlərin sərbəst toplaşmaq azadlığını həyata keçirməsinə çətinliklər yaradır.

Dinc toplantıların təşkilatçıları beş iş günü qabaqcadan toplantı barədə dövlət orqanlarına məlumat verməlidirlər. Bu tələb praktikada dövlət orqanlarından icazə almaq tələbi kimi şərh edilir və çox vaxt icazə verməkdən imtina edilir. Təsadüfi (spontan) toplantılara münasibətdə yazılı bildirişin təqdim edilməsi tələb olunmur ("Sərbəst toplaşmaq azadlığı haqqında"

Qanunun 5-ci maddəsi). Bununla belə, bu cür toplantılar Qanunun 7 və 8-ci maddələrində göstərilən tələblərə uyğun olaraq hələ də məhdudlaşdırıla və ya dayandırıla bilər. Bu maddələrə əsasən sərbəst toplaşmaq azadlığı yalnız qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallarda milli təhlükəsizlik və ya ictimai asayiş maraqları, iğtişaşların və ya cinayətlərin qarşısının alınması, sağlamlığın və mənəviyyatın, digər şəxslərin hüquq və azadlıqlarının qorunması məqsədləri ilə məhdudlaşdırıla bilər. Milli, irqi və ya dini düşmənçiliyi təbliğ edən, ayrı-seçkilik, düşmənçilik və ya zorakılıq çağırışları ilə müşayiət olunan toplantılar beynəlxalq hüquqa uyğun olaraq qadağandır.

Bundan əlavə, icazəsiz toplantılara qatılan şəxslər sorğu-sual üçün polis bölməsinə gətirilə bilər. Praktikada bu cür sorğu-suallar daha çox hüquq müdafiəçilərinə münasibətdə baş verir.

### 2) Vətəndaşlarla hökumət arasında ünsiyyət çatışmazlığı vətəndaşların etirazına gətirib çıxarıb ki, bu da hökumətin VCT-lərlə əməkdaşlığının zəruriliyini önə çıxarır.

2023-cü il iyunun 20-21-də Gədəbəyin Söyüdlü kəndində baş verən hadisələr dinc toplaşmaq azadlığının qarşısının alınmasına mənfi nümunə oldu. Bu insident bir daha onu göstərir ki, Azərbaycanda vətəndaşların sərbəst toplaşmaq imkanlarından istifadə etməsinə maneələr var. Konkret olaraq, Gədəbəyin Söyüdlü kəndində kənd sakinləri qızıl mədəni şirkəti tərəfindən tullantılar üçün ikinci su anbarının tikintisinə qarşı ekoloji etiraz aksiyası keçirərək şirkətin fəaliyyətinin icmanın yaşadığı ərazini çirkləndirdiyini bildiriblər.[29] Polis aksiyanı zorla dağıdıb və bibər qazından istifadə edib ki, bu da sosial mediada onun hərəkətlərinin mütənasibliyi ilə bağlı narahatlıqlara səbəb oldu. Etiraz edən kənd sakinlərindən bəziləri həbs edilib, biri isə cərimələnib.[30] Söyüdlü hadisələri VCT-lərin bölgələrdə hökumətlə vətəndaşlar arasında sağlam münasibətlərin qurulmasında əhəmiyyətini göstərdi. Belə ki, bölgələrdə vətəndaşların öz problemlərini səlahiyyətli orqanlara lazımi şəkildə çatdırmasına, ətraf mühitin monitorinqinin həyata keçirilməsinə və lazım gələrsə beynəlxalq arenada problemin qaldırılmasına köməklik edə biləcək VCT-lər olsaydı, bu hadisə dinc yolla həll oluna bilərdi. Çox vaxt vətəndaşlar öz problemlərini hökumətə lazımi şəkildə çatdırmaq bacarığına malik olmurlar və bu, VCT-lərə ehtiyac duyulduğunu nümayiş etdirən tipik vəziyyətidir.

### 4-cü sahə üzrə xüsusi tövsiyələr:

- Milli Məclis qanunvericilikdə dəyişikliklər etməli və dinc toplantıların keçirilməsinə icazədənsə, əvvəllcədən məlumatlandırma praktikası tətbiq edilməlidir; və

[29] https://www.bbc.com/azeri/azerbaijan-66116256
[30] https://jam-news.net/the-fight-against-the-population-of-a-village-with-tear-gas-what-happened-in-soyudlu/

- Milli Məclis VCT-lərə hakimiyyət orqanlarının dinc toplantılara icazə verməyən qərarlarından operativ şikayət etmək imkanı vermək üçün həmin qərarlara məhkəmə tərəfindən baxılması prosesini sürətləndirməlidir.

## 3.5 Qərarların qəbulunda iştirak hüququ

**Sahə üzrə ümumi bal: 4.6/ 7**

| Qanunvericilik: 5.0/ 7 | Praktika: 3.1/ 7 |
|---|---|

Azərbaycanda VCT-lər işçi qrupları, ictimai şuralar və ictimai müzakirələr kimi müxtəlif vasitələrlə qərarların qəbulunda iştirak edə bilərlər. Bununla belə, bəzən onlara birbaşa təsir edən qərarların qəbulunda onlarla məsləhətləşmə aparılmır. Dövlət orqanları tərəfindən ictimaiyyətə açıqlanmadığı təqdirdə qanun layihələrinin əldə edilməsi adətən çətin olur. İctimai şuralara seçkilərlə bağlı problemlər qalmaqdadır. Ümumi ballar 2022-ci ildən dəyişməzdir və eyni tövsiyələr olduğu kimi qalır.

### 1) Qanun dövlət orqanlarından ictimai şuralar yaratmağı tələb edir.

"İctimai iştirakçılıq haqqında" Qanun ilk növbədə ictimai şuraların yaradılmasını dövlət orqanlarının üzərinə qoyulan vəzifə kimi deyil, onlara verilən hüquq kimi nəzərdə tutur; belə ki, indiyədək iyirmiyə yaxın qurum ictimai şura yaradıb.[31] Bundan başqa, regionlarda yerli icra hakimiyyətləri yanında on ikiyə yaxın belə qurum var.[32] Bununla belə, dövlət orqanlarının nəzdində fəaliyyət göstərən ictimai şuraların əksəriyyəti formal qurum olaraq qalır, çünki onların dövlət qurumlarında qərarların qəbulu prosesinə, demək olar ki, heç bir təsiri yoxdur. "İctimai iştirakçılıq haqqında" Qanun bir VCT üzvünün müxtəlif ictimai şuralarda eyni vaxtda üzvlüyünü qadağan etmir. Ona görə də bu qanuna fərdin eyni vaxtda bir neçə ictimai şurada iştirakını qadağan edən müddəanın daxil edilməsi üçün dəyişiklik edilməsi vacibdir.[33]

[31] Məsələn, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Gənclər və İdman, Daxili İşlər, Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirlikləri və Qadın, Uşaq və Ailə Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Miqrasiya Xidməti, Dövlət İmtahan Mərkəzi, ASAN və s.
[32] İctimai Şura, www.ictimaishura.az.
[33] Hədəf qrupları ilə müzakirələr.

2) **VCT-lərin qərar qəbul etmə prosesində iştirakına münasibətdə ayrı-seçkilik yanaşması mövcuddur.**

Vətəndaş cəmiyyəti təşkilatlarının (VCT) iştirak etdiyi qərar qəbuletmə proseslərində nəzərəçarpacaq qərəzli yanaşma özünü büruzə verir. Dövlətin VCT-lərin müzakirələrə qatılmasına yanaşması hökumət rəsmiləri ilə yaxın əlaqələri olan şəxslərə münasibətdə tərəfkeşlik edildiyinə görə qınanılır. Təəssüf ki, hökumət VCT-ləri dövlət siyasətinin formalaşdırılmasında, həyata keçirilməsində və ona nəzarət edilməsində iştiraka aktiv şəkildə cəlb edilməsinə minimal maraq nümayiş etdirməkdə davam edir. Vəziyyətdəki bu durğunluq əvvəlki hesabat ilində olduğu kimi dəyişməz qalır.[34]

3) **Qərarların qəbulu prosesində iştirak üçün hüquqi mexanizmlərdə çatışmazlıq var.**

"İctimai İştirakçılıq haqqında" Qanun VCT-lərə siyasətin həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsində məşvərətçi qurumlar vasitəsilə rol ayırır. Bununla belə, qanunvericilik ictimaiyyətin iştirakının effektivliyini azaldan müəyyən müddəaları[35] özündə ehtiva edir. Bundan əlavə, bir-birini tamamlayan bir sıra qanunvericilik aktlarının olmaması[36] ictimaiyyətin iştirakının praktikada həyata keçirilməsinə maneçilik törədir və çoxlu problemlər yaradır.[37]

### 5-ci sahə üzrə xüsusi tövsiyələr:

- Hökumət milli səviyyəli dövlət orqanlarının və yerli icra hakimiyyəti orqanlarının üzərinə ictimai şuralar yaratmaq, habelə şuraların fəaliyyətləri barədə ictimaiyyətə hesabat vermək vəzifəsi qoymalıdır;
- Hökumət vahid onlayn resurs yaratmalı və qanun layihələrinin Milli Məclis tərəfindən məcburi ictimai müzakirələrindən əlavə, milli səviyyəli bütün dövlət orqanlarının və bütün yerli icra hakimiyyəti orqanlarının üzərinə yardımçı normativ hüquqi aktların layihələrini ictimaiyyət və VCT-lər tərəfindən nəzərdən keçirilmək üçün dərc etmək vəzifəsi qoymalıdır;
- Milli Məclis "İnformasiya əldə etmək haqqında" Qanunda dəyişiklik edərək icra hakimiyyəti orqanlarının üzərinə məlumat verməkdən imtinanı əsaslandırmaq

[34] Məşvərət şurası üzvlərinin iclası.
[35] "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin Qərarının 2.2., 2.3. və 2.4-cü bəndlərində göstərilən müddəaların nəticəsi olaraq, ictimai şuralar ictimai şuralara seçkilərin təşkil edilməsində və həmin müddəalara uyğun olaraq ictimai şuraların tərkibinə üzvlərin daxil edilməsində ictimai nəzarəti həyata keçirən orqanlardan əhəmiyyətli dərəcədə asılı duruma düşür.
[36] "İctimai iştirakçılıq haqqında" Qanunun 20-ci maddəsində qeyd edilir ki, "bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar". Lakin Qanunda konkret göstəriş olmasına baxmayaraq, indiyədək konkret inzibati tənbeh tədbirləri nəzərdə tutulmayıb.
[37] Sahib Məmmədov, İctimai iştirakçılıq, Monitorinq hesabatı, Bakı, 2017, http://ogp.org.az/wp-content/uploads/2017/02/PUBLIC-PARTICIPATION.pdf.

vəzifəsi qoymalı, eləcə də əsassız imtinaya görə cəza İnzibati Xətalar Məcəlləsinə daxil edilməlidir; və

- Hökumət Nazirlər Kabinetində VCT-lərlə məsləhətləşmələrin, xüsusən də VCT-lərə təsir edən qərarlarla bağlı məsləhətləşmələrin aparılmasını təmin etməlidir.

## 3.6 İfadə azadlığı

**Sahə üzrə ümumi bal: 3.9/ 7**

| Qanunvericilik: 4.6/ 7 | Praktika: 3.1/ 7 |
|---|---|

2023-cü ildə Azərbaycanda ifadə azadlığı problem olaraq qalır. VCT-lər fikirlərini ilk növbədə onlayn sosial şəbəkələr vasitəsilə ifadə edir, hökumətin tənqidinə gəldikdə isə, çox vaxt ehtiyatla hərəkət edirlər. VCT fəaliyyətləri üçün ümumi platformalara Facebook, Instagram və YouTube daxildir. Diffamasiya (təhqir və böhtan) əvvəlkitək cinayət məsuliyyəti yaradır. "Media haqqında" yeni Qanununun qəbulu Azərbaycanda ifadə azadlığı üçün daha məhdudlaşdırıcı hüquqi mühitin yaranmasına şərait yaratdı [38] ki, bu da praktiki ifadə azadlığına təsir göstərir. Bundan əlavə, bəzi fəallar sosial şəbəkələrdəki postlarına görə həbs edilib ki, bu da bu sahədə xalların azalmasına gətirib. (hüquq üzrə 4,8-dən 4,7-yə, təcrübə üçün 3,5-dən 3,0-a qədər). Azərbaycanda bəzi media subyektləri hələ də bloklanır.[39] Nəticə etibarilə, əvvəlki hesabat dövründəki tövsiyələr 2023-cü il üçün də aktual olaraq qalır.

### 1) Ölkədə ifadə azadlığının vəziyyəti ilə bağlı narahatlıq var.

Hesabat dövründə ifadə azadlığının pozulması ilə bağlı vətəndaş cəmiyyətinin və beynəlxalq ictimaiyyətin narahatlığını artıran bir sıra hadisələr baş verib. Birincisi, 2022-ci il dekabrın 9-da vətəndaş cəmiyyəti fəalı Bəxtiyar Hacıyev həbs edilib. O, Cinayət Məcəlləsinin 221-ci (xuliqanlıq) və 289-cu (məhkəməyə hörmətsizlik) maddələri ilə ittiham olunur. Vətəndaş cəmiyyətinin bəzi üzvləri Bəxtiyar Hacıyevə qarşı irəli sürülən ittihamları qondarma hesab edir və onun həbsinin dövlət məmurlarını tənqid etməsi ilə bağlı olduğunu düşünürlər.[40] İyun ayında Bəxtiyar Hacıyevə qarşı Cinayət Məcəlləsinin 192-ci (qanunsuz sahibkarlıq), 193-1-ci (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma) və 206-cı (qaçaqmalçılıq) maddələri ilə yeni ittihamlar irəli sürülüb.[41] ABŞ Dövlət Departamentinin, ABŞ Senatının,

[38] https://www.coe.int/en/web/portal/-/azerbaijan-media-law-overregulation-in-an-already-restrictive-environment#:~:text=The%20Venice%20Commission%20concludes%20that,to%20do%20fulfil%20their%20'public
[39] https://www.state.gov/reports/2022-country-reports-on-human-rights-practices/azerbaijan/
[40] https://www.amerikaninsesi.org/a/6943362.html
[41] https://report.az/hadise/ictimai-feal-bextiyar-haciyev-saxlanilib/ https://www.amerikaninsesi.org/a/7140005.html

Avropa İttifaqının, Avropa Şurasının və bir sıra beynəlxalq QHT-lərin nümayəndələri dəfələrlə Hacıyevin həbsdən azad olunmasını tələb ediblər.[42]

İkincisi, 24 iyun 2023-cü il tarixində sosial şəbəkələrdə polisin Söyüdlü kəndində etirazçılara qarşı hərəkətlərini pisləyən bir neçə fəal da inzibati qaydada həbs edilib və eyni zamanda, hadisələri işıqlandıran bir neçə jurnalist saxlanılıb.[43]

Üçüncüsü, Azərbaycan Demokratiya və Rifah Hərəkatının sədri, tanınmış iqtisadçı alim Qubad İbadoğlu 2023-cü il iyulun 23-də həbs edilib. O, Cinayət Məcəlləsinin saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma, habelə dini ekstremist materialları hazırlama, saxlama və ya yayma maddələri ilə ittiham olunur.[44] Bəzi beynəlxalq təşkilatlar ona qarşı ittihamların qondarma olduğunu və siyasi motivlərlə irəli sürüldüyünü hesab edir.[45]

20-21 noyabr 2023-cü il tarixlərində "AbzasMedia" saytının rəhbərləri Ülvi Həsənli və Sevinc Vaqifqızı, 23 noyabr 2023-cü il tarixdə isə saytın direktor müavini Məhəmməd Kekalov, 1 dekabr 2023-cü ildə saytın əməkdaşı, jurnalist Nərgiz Absalamova həbs edilmişlər[46]. Onlar Cinayət Məcəlləsinin 206.3.2-ci maddəsi ilə qaçaqmalçılıqda ittiham olunublar. Bəzi beynəlxalq hüquq müdafiə təşkilatları jurnalistlərin həbsini pisləyib və onların dərhal azadlığa buraxılmasını tələb ediblər[47]. Jurnalistlər bu ittihamları rədd edir və həbslərini jurnalist fəaliyyətləri ilə əlaqələndirirlər.

### 2) Media qurumları üçün daha yüksək cəzalar qəbul edilmişdir ki, bu da media fəaliyyəti ilə məşğul olan VCT-lərə potensial olaraq mənfi təsir göstərə bilər.

25 aprel 2023-cü il tarixindən İnzibati Xətalar Məcəlləsinin (İXM) 381-ci maddəsi yeni redaksiyada qüvvəyə minib.[48] Yenidən işlənmiş 381-ci maddə pozuntulara görə məsuliyyət dairəsini genişləndirir və media orqanlarına qarşı daha sərt və daha yüksək cəzalar tətbiq edir ki, bu da öz növbəsində media fəaliyyəti ilə məşğul olan VCT-lərə və vətəndaş cəmiyyəti üzvlərinə birbaşa təsir göstərir. Ümumən cərimələr təxminən 200 manat ilə 10.000 manat arasında dəyişir. Media ilə bağlı fəaliyyətlərlə məşğul olan VCT-lərin insan və maliyyə resurslarının məhdud olduğunu nəzərə alsaq, belə yüksək cəzalar onlar üçün ağır yük ola bilər.

---

42 https://www.irfs.org/news-feed/the-court-extended-the-pretrial-detention-of-bakhtiyar-hajiyev-for-another-month/ https://www.state.gov/calling-for-the-release-of-bakhtiyar-hajiyev/#:~:text=Mr.,for%20exercising%20their%20fundamental%20freedoms
43 https://www.amerikaninsesi.org/a/qiyas-ibrahimov-32-days-administrative-prison-term/7151200.html https://abzas.org/2023/6/jurnalistlr-soyudludn-poliscbb801df-f/ https://fom.coe.int/en/alerte/detail/107639549
44 https://www.bbc.com/azeri/articles/cmmy8l4z8v5o
45 https://www.hrw.org/news/2023/08/09/azerbaijan-arrest-democracy-advocate https://www.amnesty.org/es/wp-content/uploads/2023/08/EUR5570882023ENGLISH.pdf
46 https://www.bbc.com/azeri/articles/c1w2jw5gp12o
47 https://www.hrw.org/news/2023/11/22/azerbaijan-crackdown-independent-media
48 https://e-qanun.az/framework/53997

**6-cı sahə üzrə xüsusi tövsiyələr:**

- Hökumət və məhkəmələr onlayn media resurslarının bloklanmasının ciddi şəkildə qanunvericiliyə uyğun həyata keçirilməsi təmin etməlidirlər;
- Milli Məclis qanunvericilikdə dəyişiklik edərək diffamasiyanı dekriminallaşdırmalı və cinayət əməli deyil, inzibati xəta kimi müəyyən etməlidir; və
- Hökumət praktikada senzuranı aradan qaldırmalı və tənqidi fikirlər səsləndirən jurnalistlərə və VCT fəallarına qarşı təzyiqləri dayandırmalıdır.

## 3.7 Şəxsi toxunulmazlıq hüququ

**Sahə üzrə ümumi bal: 4.4/ 7**

**Qanunvericilik: 4.9/ 7** | **Praktika: 3.8/ 7**

Azərbaycan Respublikasının qanunvericiliyi VCT-lər və VCT üzvləri də daxil olmaqla hər kəsin şəxsi toxunulmazlıq hüququna təminat verir və bununla bağlı VCT-lərə qarşı heç bir ayrı-seçkilik yoxdur. 2023-cü ildə VCT sektoru üzvlərinin şəxsi toxunulmazlıq hüququna qeyri-qanuni müdaxilə halları qeydə alınmamışdır. Eynilə, dövlət tərəfindən VCT-lərin və VCT nümayəndələrinin fərdi məlumatlarının qorunması hüququnu pozan müdaxilə, eləcə də VCT-lərin ofislərinə müdaxilə halları (istər hüquqi, istərsə də praktiki) qeydə alınmayıb. 2023-cü ildə şəxsi toxunulmazlıq hüququ ilə bağlı VCT-lər üçün mühit əvvəlki illə müqayisədə dəyişməyib və buna görə də ballar olduğu kimi qalıb.
Hökumət bu sahədə 2022-ci il üçün VCT Ölçü Meyarı hesabatında nəzərdə tutulan tövsiyələrin həyata keçirilməsi istiqamətində heç bir tədbir görməyib və bu səbəbdən bütün tövsiyələr 2023-cü il üçün hələ də aktualdır.

1) **Şəxsi toxunulmazlıq hüququnu qorumaq üçün qanunvericilik bazası mövcuddur, lakin o, tam olaraq beynəlxalq standartlara dair öhdəliklərə cavab vermir.**

“Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının 11 may 2010-cu il tarixli Qanunu[49] fərdi məlumatların toplanması, işlənməsi və mühafizəsinin qanunverici əsaslarını və ümumi prinsiplərini müəyyən edir. Bundan əlavə, Azərbaycan Respublikası nəzarət orqanları və transsərhəd məlumat axınları ilə əlaqədar olan "Fərdi məlumatların avtomatlaşdırılmış

[49] “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının 11 may 2010-cu il tarixli Qanunu, http://www.e-qanun.az/framework/19675.

qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanı imzalayıb və 30 sentyabr 2009-cu il tarixli qanun (№ 879-IIIQ)[50] vasitəsilə ratifikasiya edib.

Şəxsi toxunulmazlıq hüququ Azərbaycan Konstitusiyasında (maddə 32) şəxsi həyatın toxunulmazlığı hüququ kimi təmin edilib. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.[51]

Lakin 2016-cı ilin noyabrında Cinayət Məcəlləsinə daxil edilmiş 148-1-ci maddəyə əsasən, internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. [52] Bununla belə, Azərbaycanda təhqir və böhtan aktlarının dekriminallaşdırılması prosesi onun Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə əsaslanır. Bu müddəaların Cinayət Məcəlləsinə daxil edilməsi Azərbaycanın öhdəliklərinə ziddir.

### 2) Azərbaycanda qanunvericiliyə riayət edilməsi ilə donorların şəxsi toxunulmazlığının qorunması arasında üst-üstə düşməyən məqamlar var.

VCT-lər il ərzində onlara hətta cüzi miqdarda pul ianə etmiş şəxslərin də pasport məlumatlarını MN-ə təqdim etməyə borcludurlar. Bu, donorlar üçün dilemma yarada və maliyyə dəstəyi əldə etmək məsələsində VCT-lər üçün maneə yarada bilər, çünki onlar bu yardım edənlərdən şəxsi pasport məlumatlarını almalı olacaqlar.

### 7-ci sahə üzrə xüsusi tövsiyələr:

- Milli Məclis sosial şəbəkələrdə saxta profillərdən istifadə edilməsini dekriminallaşdırmalı və hər hansı sanksiyaların mütənasibliyini təmin etməlidir; və
- Maliyyə Nazirliyi VCT-lərin donorların pasport məlumatlarını MN-ə təqdim etmələri tələbini ləğv etməlidir.

---

50 "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/18625.
51 Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsi.
52 Cinayət Məcəlləsinin 148-1-ci maddəsi.

## 3.8 Dövlətin müdafiəni təmin etmək vəzifəsi

**Sahə üzrə ümumi bal: 4.4/ 7**

| Qanunvericilik: 4.7/ 7 | Praktika: 4.1/ 7 |
| --- | --- |

Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə əsasən, hər kəsin, o cümlədən VCT-lərin və onların üzvlərinin məhkəmələrdə özünü təmsil etmək və hüquqlarını müdafiə etmək hüququ var. Cari hesabat dövründə mediada VCT-lərə qarşı hər hansı neqativ kampaniya və ya hökumət rəsmilərinin mənfi ictimai bəyanatları olmayıb. Bununla belə, bir neçə ictimai fəalın tutulması və həbsə alınması dövlətin VCT-lərin müdafiəsini təmin etmək vəzifəsini yerinə yetirəcəyini şübhə altına alıb və 2023-cü ildə bu sahəyə mənfi təsir göstərib. Ekstremizm, terrorizm, çirkli pulların yuyulması və ya korrupsiya ilə mübarizə ilə bağlı qanunvericilik tələbləri VCT-lər üçün ağırdır və əksər təşkilatların onlara əməl etmək üçün heç bir resursu yoxdur. ÇPY/TM-ə qarşı mübarizə haqqında yeni qanun VCT-lərin üzərinə daha çox öhdəliklər qoyur və onların effektiv fəaliyyət imkanlarına mane olur. Ona görə də bu sahə üzrə ümumi bal aşağı düşüb (hüquq üzrə 5-dən 4,5-ə, təcrübə üçün 4,2-dən 4,1-ə qədər). Hökumət hesabatlardakı əvvəlki tövsiyələrlə bağlı heç bir tədbir görməyib, buna görə də onlar 2023-cü il üçün hələ də qüvvədə qalır.

### 1) Qeyri-formal birliklər qeydiyyatdan keçmiş VCT-lərdən fərqli olaraq effektiv fəaliyyət göstərməkdə çətinliklərlə üzləşirlər.

Hüquqi şəxs statusuna malik olmadığından qeyri-formal birliklər Azərbaycan qanunvericiliyinin onların yaradılmasına və mövcud olmasına icazə verməsinə baxmayaraq, müəyyən hüquqlara malik deyillər. Məsələn, qeyri-formal birliklər məhkəmədə iddiaçı qismində çıxış etmək, əmlak sahibi olmaq, bank hesabları açmaq və ya vergi ödəyicisinin eyniləşdirmə nömrəsini almaq hüququna malik deyillər. Qeydiyyatsız VCT Ədliyyə Nazirliyində (ƏN) rəsmi qeydiyyatdan keçmədiyi halda dövlət onun adının qorunmsını təmin edə bilməz.

2014-cü ildən bəri Azərbaycanda VCT-lər arasında hökuməti tənqid edənlərin sayı əhəmiyyətli dərəcədə azalıb. VCT sektoru hazırda əsasən hökumətyönlü və ya neytral üzvlərdən ibarətdir ki, bu da dövlətin son illərdə sektor üzərində artan nəzarətini əks etdirir. Nəticədə hökumətin 2014-cü ildən əvvəl olduğu kimi VCT-lərin fəaliyyətinə müdaxilə etməsinə və ya onları hədəfə almasına ehtiyac yoxdur. 2023-cü ildə bu baxımdan vəziyyət əsasən dəyişməz olaraq qalır.

## 2) Azərbaycanda VCT-lər üçün qeyri-mütənasib cəzalar mövcuddur.

VCT-lərə və kommersiya qurumlarına tətbiq edilən cəzalar arasında nəzərəçarpacaq fərq var. Bu uyğunsuzluq bu cəzaların VCT-lərin maliyyə vəziyyəti baxımından mütənasibliyi məsələsi ilə bağlı narahatlıq doğurur. Azərbaycanda qanunvericilik bazası VCT-ləri kommersiya qurumları ilə müqayisədə daha sərt cəzalara məruz qoyur. Əsas diqqətini çox vaxt sosial, mədəni və ya ictimai vəkillik təşəbbüslərinə yönəldən VCT-lərin adətən məhdud maliyyə resursları olduğunu nəzərə alsaq, bu qeyri-mütənasiblik xüsusilə diqqəti cəlb edir. Hüquqi nəticələrin ədalətliliyi məsələsi nəzərdən keçirilməli olan mühüm məsələyə çevrilir, çünki bu, VCT-lərin səmərəli fəaliyyət göstərmək və müvafiq maraqlarını müdafiə etmək imkanlarına təsir göstərə bilər.

## 3) ÇPY/TM-ə qarşı mübarizə haqqında yeni qanun VCT-lərin üzərinə lüzumsuz öhdəliklər qoyur.

31 yanvar 2023-cü ildə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" ("ÇPY/TM-ə qarşı mübarizə haqqında") yeni Qanun və "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanun (bundan sonra "İXM" adlandırılacaq) qüvvəyə minmişdir.[53] ÇPY/TM-ə qarşı mübarizə haqqında yeni qanuna uyğun olaraq, həm maliyyə, həm də qeyri-maliyyə təsisatları maliyyə monitorinqi orqanına VCT-lər tərəfindən aparılan bütün bank əməliyyatları ilə bağlı məlumat və sənədləri təqdim etməyə borcludurlar. Qanunun 12.3-cü maddəsinə əsasən, VCT-lər qrant və ianə alarkən, habelə verərkən risklərin minimallaşdırılmasına yönəldilmiş qayda və prosedurlara malik olmalı, qrant və ianələr, həmçinin onlardan istifadə üzrə təfsilatlı illik maliyyə hesabatını aprelin 1-dək təqdim etməlidir.

Hesabat dövründə 2 QHT-nin ÇPY/TM-ə qarşı mübarizə haqqında qanununun tələblərinə riayət etməsinin monitorinqi aparılıb.[54]

### 8-ci sahə üzrə xüsusi tövsiyələr:

- Milli Məclis VCT-lərə qarşı cəzalara yenidən baxılmasını, onların azaldılmasını və hüquq pozuntusuna mütənasib qaydada tətbiq edilməsini təmin etməlidir; və
- Milli Məclis və hökumət VCT-lərin ekstremizm, terrorizm, çirkli pulların yuyulması və ya korrupsiyaya qarşı mübarizə ilə əlaqədar öhdəliklərinə yenidən baxmalı və həmin öhdəliklər VCT-lərə risk əsaslı yanaşmaya uyğun

[53] https://president.az/az/articles/view/58762
https://e-qanun.az/framework/53373
[54] ƏN-in rəsmi cavabı.

olaraq və müəyyən bir hədd müəyyənləşdirilməklə tətbiq edilməli, məsələn, illik dövriyyəsi 50.000 manatdan (təxminən 27.900 EUR) artıq olan VCT-lərə şamil olunmalıdır.

## 3.9 Dövlətin dəstəyi

**Sahə üzrə ümumi bal: 4.1/ 7**

| Qanunvericilik: 4.4/ 7 | Praktika: 3.9/ 7 |
|---|---|

Mövcud dövlət dəstəyi Azərbaycanda əlverişsiz mühit səbəbindən VCT-lərin maliyyə ehtiyaclarını ödəmək və maddi sıxıntılarını həll etmək üçün kifayət etmir. VCT-lərin narahatlıqları qrantların prosedur aspektləri ilə deyil, ümumi sayı və məbləği ilə də bağlıdır.
Qrantlar, ianələr və üzvlük haqlarının vergidən azad olunmasına baxmayaraq, xarici maliyyələşdirmənin ƏN-də qeydiyyatı ilə bağlı problemlərə görə vergi mühiti VCT-lər üçün əlverişli deyil.
Azərbaycanda könüllülük populyardır, baxmayaraq ki, əcnəbi könüllülər üçün yaşayış icazəsi almaqda müəyyən çətinliklər var və hər bir könüllü ilə, hətta kiçik yardım üçün belə, yazılı müqavilə imzalanmalıdır. Hökumət əsasən hökumət tərəfdarı olan VCT-ləri dəstəkləyir və öz çətiri altında VCT-ləri formalaşdırmağa və onlara nəzarət etməyə çalışır. Ümumiyyətlə, 2023-cü ildə bu sahədə vəziyyət dəyişməyib. Buna görə də, ballar 2022-ci ildə olduğu kimi qaldı. Dövlət dəstəyinin dəyişmədiyi mühitə görə tövsiyələr 2023-cü ildə olduğu kimi qalır.

### 1) Dövlət orqanlarının maliyyə yardımı VCT-lərin ehtiyaclarını tam ödəmir.

QHT-lərə Dəstək Agentliyi, Gənclər və İdman Nazirliyi, Dövlət Turizm Agentliyi, Səhiyyə Nazirliyi, Mədəniyyət Nazirliyi kimi 13 dövlət orqanı[55] VCT-lərə qrant verə bilər. Buna baxmayaraq, müxtəlif dövlət mexanizmləri ilə ayrılan maliyyə vəsaiti xarici donorlar tərəfindən 2015-ci ilə qədər heç bir məhdudiyyət olmadan verilən məbləği heç vaxt əvəz edə bilməyib. Hesabat dövrü ərzində ƏN 918 qrant müqaviləsi, 97 xidmət müqaviləsi qeydiyyata alıb və 738 ianə haqqında məlumat reyestrə daxil edilib. Qeydə alınmış vəsaitlərin ümumi məbləği təqribən 307 milyon Azərbaycan manatı (166,1 milyon avro) təşkil edib.[56] Lakin dövlət qrantları formasında verilən məbləğlər çox vaxt kiçik olur və Azərbaycanda VCT sektorunun tələbatlarını tam ödəmir.

[55] https://e-qanun.az/framework/31056
[56] ƏN-in rəsmi məktubu.

## 2) Qanunvericilikdə bürokratik əngəllərin olması könüllülük fəaliyyətinə mane olur.

Qanuna görə, könüllü ilə onu cəlb edən təşkilat arasında yazılı müqavilə olmalıdır.[57] Təəssüf ki, kiçik və ya qısamüddətli könüllülük fəaliyyəti üçün bu baxımdan istisna yoxdur. Bu isə öz növbəsində bürokratik maneələr və könüllülərlə bağlı qaydaların pozulmasına görə potensial cəzalar[58] səbəbindən təşkilatın könüllüləri cəlb etməsinə mane olur.

## 3) Dövlət dəstəyinin göstərilməsi üzrə hökumətin təşəbbüsləri artır.

Dövlət dəstəyi imkanlarının yaradılmasına dövlətin diqqət göstərməsi 2023-cü ildə də artım tendensiyasını davam etdirib. Bu, qrantların verilməsində, sosial xidmətlərdə və vergi mühitində özünü büruzə verir. Birincisi, QHT-lərə Dəstək Agentliyi 2023-cü ildə qrant müsabiqələri təşkil etməyə nail olub və QHT-lərin İnkişaf və Mübadilə proqramı adlı üç günlük illik təlim sessiyaları təşkil edib və VCT mühitinin inkişafı üzrə strateji planları müzakirə edib. Tədbir müxtəlif VCT-lərin 90 nümayəndəsinin iştirakı ilə keçirilmiş, onlar "Dataların yığılması və analizi", "Layihələrin hazırlanması və icra mərhələləri" mövzularını öyrənmiş, “Məntiqi çərçivə” mövzusuna xüsusi diqqət yetirilməklə onların bilik və bacarıqları artırılmışdır. Bundan əlavə, iştirakçılar “Layihə strategiyasının hazırlanması”, “Layihələrin monitorinqi və qiymətləndirilməsi" kimi mövzularda bilik və bacarıqlarını artırmış, beynəlxalq istiqamətdə fəaliyyətin genişləndirməsi üçün “yol xəritəsi” ilə tanış olmuşlar.[59]

İkincisi, sosial xidmətlərin təmin edilməsi üçün 2023-cü il avqustun 28-də "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı" qəbul edilib. Proqrama əsasən, dövlət sosial xidmətlərin göstərilməsinin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığı davam etdirəcək.[60]

12-13 aprel 2023-cü il tarixlərində Dövlət Vergi Xidmətinin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzində 100-ə yaxın QHT nümayəndəsinin iştirakı ilə QHT-lərə Dəstək Agentliyinin 2024-2026-cı illər üzrə Strateji Planının hazırlanması ilə bağlı ictimai müzakirə keçirilib. Həmin dövrdə eyni məkanda QHT qanunvericiliyi ilə bağlı seminar təşkil olunub. Bu tədbirlərdə QHT-lərin fəaliyyətinin təşviqi və onların maliyyə resurslarına çıxış imkanlarının yaxşılaşdırılması istiqamətində müzakirələr və fikir mübadiləsi aparılıb.[61]

---

57 “Könüllü fəaliyyət haqqında” 9 iyun 2009-cu il tarixli Qanunun 9.1-ci maddəsi.
58 İnzibati Xətalar Məcəlləsinin 579-cu maddəsi könüllü ilə müqavilə imzalamamağa görə min manatdan üç min manatadək (təxminən 510 avrodan 1.530 avroya qədər) cərimə nəzərdə tutur..
59 https://report.az/daxili-siyaset/qht-lerin-ii-inkisaf-ve-mubadile-proqrami-na-yekun-vurulub/
60 https://en.trend.az/azerbaijan/politics/3789683.html
61 QHT Agentliyinin yazılı rəsmi məktubu.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 sentyabr tarixli 327 nömrəli qərarı [62] ilə qeyri-hökumət təşkilatlarının qrant maliyyələşdirilməsi üçün müsabiqələrin keçirilməsi qaydası Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən təsdiq edilib. Elan edilmiş bu dəyişikliklər QHT-lərə milli və beynəlxalq əhəmiyyətli təşəbbüslər həyata keçirmək üçün daha çox vaxt, maliyyə dəstəyi və çeviklik imkanı vermək məqsədi daşıyır və eyni zamanda onların layihələrinin ölçülə bilən nəticələrinin və sosial faydalılığının vacibliyini önə çəkir.[63]

Üçüncüsü, media yönümlü təşkilatlara vergi mühitində güzəştlər təqdim edilib. 2023-cü il aprelin 1-dən Vergi Məcəlləsinə media subyektlərinin həvəsləndirilməsini nəzərdə tutan, onların media məhsullarını və əlaqəli xidmətlərini qısa müddətə ƏDV-dən azad edən dəyişikliklər[64] qüvvəyə minib. Vergi Məcəlləsinin yeni 164.1.8-1-ci maddəsinə əsasən, 2023-cü il yanvarın 1-dən media subyektlərinin məhsulları və bununla bağlı xidmətlər 3 il müddətinə ƏDV-dən azad edilib. Müvafiq dövlət orqanı tərəfindən media subyektlərinə verilən maddi yardımlar da eyni müddətə vergidən azad edilib.

Qısa müddət ərzində vergi güzəştlərini və xərclərin yüngülləşdirilməsini nəzərdə tutan bu dəyişiklik “Media haqqında" Qanuna uyğun olaraq media ilə bağlı fəaliyyətləri həyata keçirən VCT-lərə təsir edəcək və onlar çap materiallarını dərc etdikdə, yardımlar aldıqda və media ilə bağlı xidmətlər göstərdikdə onlara faydalı olacaqdır.

2023-cü il aprelin 25-də İnzibati Xətalar Məcəlləsinin (İXM) 381-ci maddəsinin yenidən işlənmiş versiyası qüvvəyə minib. Bu maddədə Azərbaycanda media qanunvericiliyinin pozulmasına görə cəzalar müəyyən edilib. Dəyişiklik edilmiş 381-ci maddə pozuntulara görə məsuliyyət dairəsini genişləndirir və daha sərt və daha yüksək cəzalar nəzərdə tutur. Ümumilikdə cərimələr təxminən 200 Azərbaycan manatından (115 ABŞ dolları ekvivalenti) 10.000 Azərbaycan manatına (5.900 ABŞ dolları ekvivalenti) qədərdir. Media ilə bağlı fəaliyyətlərlə məşğul olan VCT-lərin insan və maliyyə resurslarının məhdud olduğunu nəzərə alsaq, belə məbləğlər onlar üçün ağır yük ola bilər.

Bununla belə, dövlət qurumları tərəfindən dövlət dəstəyi artsa da, bu hələ də VCT-lərin ehtiyaclarını ödəmək üçün kifayət etmir.

---

62 https://nk.gov.az/az/senedler/qerarlar/azerbaycan-respublikasinin-qeyri-hokumet-teskilatl-7402
63 https://qafqazinfo.az/news/detail/islahatlar-qht-lere-de-catdi-deyisiklikler-olacaq-414038
64 https://president.az/az/articles/view/59280

**9-cu sahə üzrə xüsusi tövsiyələr:**

- Hökumət və Milli Məclis donor olan fiziki və hüquqi şəxslər üçün səmərəli vergi güzəştləri müəyyən etməlidirlər;
- Milli Məclis müddəti bir gündən artıq olmayan ayrıca işlər üçün könüllü ilə yazılı müqavilə bağlamaq tələbini ləğv etməlidir;
- Hökumət VCT-lərə verilən fərdi qrantların miqdarını artırmalıdır (məsələn, 10.000 AZN-dək – təxminən 5.300 EUR) ki, onlar institusional potensiallarını artıra bilsinlər; və
- Hökumət VCT-lər tərəfindən təşkil edilən tədbirlərin keçirilməsi üçün dövlət mülkiyyətində olan obyektlərin VCT-lərə ödənişsiz və ya simvolik icarə haqqı müqabilində icarəyə verilməsi praktikasının genişləndirilməsinə yönələn tədbirlər görməlidir.

## 3.10 Dövlət-VCT əməkdaşlığı

**Sahə üzrə ümumi bal: 4.0/ 7**

| Qanunvericilik: 4.3/ 7 | Praktika: 3.9/ 7 |
|---|---|

Dövlət-VCT əməkdaşlığı əsasən QHT-lərə Dəstək Agentliyi vasitəsilə baş verir, lakin bu vasitə məhduddur və əksər hallarda VCT-ləri qərar qəbul etmə proseslərinə cəlb etməyə imkan vermir. VCT-lərin ictimai müzakirələrdə və hökumətin qərar qəbul etmə prosesində iştirakı formal və məhdud olmaqda davam edir. VCT-lərin qərar qəbul etmə prosesində iştirakına dair hüquqi baza son illər məhdud olaraq qalır və bu iştirak əsasən qeyri-aktiv normaları olan və praktikada zəif tətbiq olunan "İctimai iştirakçılıq haqqında" Qanun vasitəsilə həyata keçirilir.
Hesabat dövründə bu sahədə ciddi dəyişiklik baş verməyib.Hesabat dövründə bu sahədə ciddi dəyişiklik baş verməyib və xallar dəyişməyib. Hökumətin əvvəlki hesabat ilində VCT Ölçü Meyarı hesabatında əks olunmuş tövsiyələri nəzərə aldığına dair heç bir sübut yoxdur.

1) **Açıq hökumət təşəbbüsü və buna yerli VCT-lərin cəlb edilməsi istiqamətində beynəlxalq əməkdaşlıqda 2023-cü ildə mənfi meyllər meydana çıxmışdır.**

2017-ci ildə AHT çərçivəsində Azərbaycana VCT-lərin qeydiyyatını və maliyyəyə çıxışını sadələşdirmək tövsiyə edilib, lakin irəliləyiş əldə olunmayıb. Bu istiqamətdə dəyişiklikləri təşviq

edən 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planına baxmayaraq, hökumət AHT-nin qəbul edəcəyi yöndə hərəkətə keçməyib. Nəticədə 2023-cü il avqustun 17-də AHT-nin Rəhbər Komitəsi yekdilliklə Azərbaycanın AHT-yə üzvlüyünü həmişəlik dayandırmağa və ləğv etməyə razılıq verib.[65] Bu dayandırma ölkədəki VCT-lərə və hökumət-VCT tərəfdaşlığına aiddir, belə ki, hökumətin vətəndaş cəmiyyəti ilə əməkdaşlıq etmək istəmədiyini ifadə edir. Nəticədə Azərbaycan VCT-ləri beynəlxalq təşəbbüslərdə iştirakda çətinliklərlə üzləşə və hökumətin beynəlxalq standartlara cavab verməyən məhdudlaşdırıcı idarəetmə mühiti ilə qarşılaşa bilərlər. AHT-dən çıxma həm də hökumətin açıq hökumətlə bağlı tövsiyələri yerinə yetirmək istəməməsinin əlaməti ola bilər.

### 2) Hökumət QHT qanunvericiliyində islahatlara işarə edir, lakin VCT-dövlət əməkdaşlığı ilə bağlı potensial dəyişikliklər qeyri-müəyyən olaraq qalır.

7 noyabr 2023-cü ildə QHT Agentliyi "Azərbaycanın yeni inkişaf mərhələsində qeyri-hökumət təşkilatları" mövzusunda forum[66] keçirib. Tədbirdə Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin müdiri QHT sektorunda əsaslı islahatlara başlanıldığını və bununla bağlı qanunvericilik bazasının davamlı olaraq yenidən nəzərdən keçirildiyini açıqlayıb. Lakin bu bəyanatlara baxmayaraq, bu dəyişikliklərin konkret mahiyyəti naməlum olaraq qalır və bizə onların yaxın gələcəkdə baş verəcəyini gözləmək qalır.

## 10-cu sahə üzrə xüsusi tövsiyələr:

- Hökumət "İctimai iştirakçılıq haqında" Qanunda nəzərdə tutulmuş mexanizmlərə uyğun olaraq istər mərkəzi, istərsə də yerli səviyyələrdə dövlət orqanları ilə VCT-lər arasında əməkdaşlığın asanlaşdırılmasına yönələn tədbirlər görməlidir;
- Hökumət "İctimai iştirakçılıq haqında" Qanunda nəzərdə tutulmuş ictimai iştirakçılıq mexanizmlərinin tətbiqinin səmərəliliyini artırmalıdır; və
- Hökumət dövlət qulluqçuları üçün VCT-hökumət əməkdaşlığına dair təlim təşkil etməlidir.

[65] https://www.opengovpartnership.org/news/azerbaijan-permanently-suspended-from-the-open-government-partnership/
[66] https://azertag.az/xeber/bakida_azerbaycanin_yeni_inkisaf_merhelesinde_qeyri_hokumet_teskilatlari_movzusunda_forum_kechirilib_video-2817823

## 3.11 Rəqəmsal hüquqlar

**Sahə üzrə ümumi bal: 4.6/ 7**

| Qanunvericilik: 4.8/ 7 | Praktika: 4.3/ 7 |
|---|---|

Müvafiq qanunvericilikdə VCT-lərin rəqəmsal hüquqları, o cümlədən süni intellekt (AI) ilə bağlı xüsusi müddəalar yoxdur. Bununla belə, VCT-lərin rəqəmsal hüquqları əsasən ümumi qanunvericiliyin bir hissəsi kimi qorunur. Kibercinayətkarlıqla bağlı qanunlar və ya rəqəmsal sahə ilə bağlı digər cinayət-hüquqi qanunlar əsasən qeyri-qanuni hərəkətlərin dəqiq təsbit edilməsi ilə məhdudlaşır.

Hökumətin tətbiq etdiyi "fərdi elektron pəncərə" (FEP) sisteminin onlayn funksiyalarının məhdudluğuna, məsələn, VCT-lərin onlayn qeydiyyatına icazə verilməməsinə baxmayaraq, bu sistemi tətbiq etməklə hökumət son illərdə VCT-lərin rəqəmsal hüquqlarından istifadə etməsi üçün mühiti bir qədər yaxşılaşdırmışdır. Bununla belə, "müxalifətin tənqidi səsləri" kimi tanınan media subyektləri üzərində qalan rəqəmsal məhdudiyyətlər [67] və bəzi müxalif VCT üzvlərinin rəqəmsal hüquqlarının məhdudlaşdırılması, "Media haqqında" yeni Qanunun media üçün tələbləri ilə paralel olaraq, bu sahədə istənilən irəliləyişləri üstələyir. Hökumət bu sahə üzrə əvvəlki hesabatdakı tövsiyələri nəzərə alaraq heç bir real addım atmayıb və cari hesabat dövrü üçün tövsiyələr əvvəlki hesabatda olduğu kimi qalır.

### 1) Sosial şəbəkələr VCT-lər üçün əsas rəqəmsal alət olaraq qalır.

Dövlət sosial şəbəkələrdə iştiraka məhdudiyyət qoymur. Vətəndaşlar səlahiyyətli qurumlardan öncədən icazə almadan internetdə məzmun yerləşdirməkdə sərbəstdirlər. 2023-cü ildən etibarən fiziki məkanda fəaliyyət göstərmək məhdudiyyəti ilə üzləşən VCT-lərin əksəriyyəti sosial şəbəkə platformalarının təklif etdiyi məkandan istifadə edərək, əsasən onlayn rejimdə aktivdir. Bununla belə, offlayn rejimdən onlayn rejimə keçid onlayn konfidensiallıq və təhlükəsizliklə bağlı narahatlıqları da artırıb. İşlərinin həssas xarakterini nəzərə alaraq, bir çox VCT-lər müşahidə altında olma və məlumatların məxfiliyi ilə bağlı potensial riskləri olan mühitdə hərəkət etdikləri üçün sosial mediada müəyyən məlumatları paylaşmaqda ehtiyatlı davranırlar. Bu balanslaşdırıcı davranış vətəndaş cəmiyyətinin rəqəmsal mühitdə mövcudluğu ilə onun üzvlərini və həssas məlumatları qorumaq zərurəti arasında həssas qarşılıqlı əlaqəni və eyni zamanda aktiv və təsirli onlayn fəaliyyətləri davam etdirmək səylərini özündə əks etdirir.

[67] https://www.state.gov/reports/2022-country-reports-on-human-rights-practices/azerbaijan/

Əksər VCT-lər hakimiyyətlə mümkün münaqişələrin qarşısını almaq üçün sosial mediada özünüsenzura tətbiq edir.

### 2) Onlayn mediaya münasibətdə ciddi tələblər mövcud olmaqda davam edir.

Vətəndaş cəmiyyəti kontekstində onlayn media mühüm rol oynayır, belə ki, o, VCT-lərin ismarıclarını paylaşması, maraqlarını müdafiə etməsi və qlobal auditoriya ilə əlaqə yaratması üçün dinamik və əlçatan platformanı təmin edir. Vətəndaş cəmiyyəti həqiqətən də onlayn mediada fəaliyyətə malik ola bilər, bu VCT-lərin səslərini ucaltmasına və mühüm məsələlərlə bağlı ictimai müzakirələrə təsir göstərməsinə imkan verir. Onlayn media açıq, inklüziv və məlumatlı müzakirələri asanlaşdırır, daha əhatəli və hesabatlı demokratik cəmiyyətə töhfə verir. O, vətəndaş cəmiyyətinə genişmiqyaslı təsirə malik olmaq imkanı verir və çoxsaylı nöqteyi-nəzərlərin ictimai sferada eşidilməsini təmin edir ki, bu da son nəticədə məlumatlılığa əsaslanan və dinamik demokratiyanın əsaslarını gücləndirir.

2022-ci il fevralın 22-də qüvvəyə minmiş "Media haqqında" yeni Qanun [68] onlayn media orqanlarına sərt tələblər tətbiq edir. Qanuna əsasən, onlayn medianın fəaliyyətinin "davamlı" sayılması üçün o, gündə azı 20 (iyirmi) kütləvi informasiya dərc etməlidir. Bu şərt 2023-cü ildə narahatlıq doğurmaqda davam edib, belə ki, o, onlayn media orqanlarının üzərinə ağır yük qoya və aydın məntiqi əsasa söykənməyə bilər.

### 11-ci sahə üzrə xüsusi tövsiyələr:

- Hökumət və Milli Məclis rəqəmsal alətləri və elektron demokratiyanı təşviq etməyə və onlara şərait yaratmağa yönələn siyasət və ya qaydalar qəbul etməlidirlər; və

- Milloi Məclis və hökumət bu sahədə qanunlar və normativ aktlar qəbul edilərkən insan hüquqlarını lazımınca nəzərə almalı, o cümlədən onların insan hüquqlarına təsirlərini qiymətləndirməli və rəqəmsal texnologiyaların işlənib hazırlanması, inkişafı və tətbiqi prosesində şəffaflığı təmin etməli və rəqəmsal texnologiyaların tətbiqindən əvvəl və sonra VCT-lər və potensial təsirə məruz qalan qruplarla səmərəli məsləhətləşmələr aparmalıdırlar.

[68] https://president.az/az/articles/view/55399

# IV. ƏSAS PRİORİTETLƏR

Azərbaycanda VCT-lər hələ də çətin bir mühitdə fəaliyyət göstərirlər və əsas problemlər maliyyələşmə, hesabat vermə, cəza sanksiyaları, ifadə azadlığı və dinc toplaşmaq azadlığı ilə bağlıdır ki, bunlar da həm qanunvericilikdən, həm də praktikadan irəli gəlir (ifadə, toplaşmaq, birləşmək azadlığı, maliyyələşməyə çıxış, dövlət dəstəyi, dövlət-VCT əməkdaşlığı). Bu məsələlər VCT-lərin qeydiyyatı və fəaliyyəti ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi, vergitutmanın sadələşdirilməsi yolu ilə VCT-lərin potensialının artırılması, onlar üçün maliyyələşdirilmə mühitinin yaradılması, habelə qərarların qəbulu prosesində onların effektiv iştirakının təmin edilməsi kimi əsas prioritetləri formalaşdırır.

Hesabatda qeyd olunan problemlərin, demək olar ki, hamısı ötən ildə olduğu kimi, bu il də öz həllini tapmayıb. Hökumət bu hesabatda qeyd olunan tövsiyələrə birbaşa istinad etməsə də, keçən ildən fərqli olaraq, 2022-ci ildə regionlarda VCT-lərin iştirakı ilə bir neçə böyük görüş keçirməklə dövlət-VCT əməkdaşlığının genişləndirilməsində maraqlı olduğunu nümayiş etdirib. Baxmayaraq ki bu, VCT Ölçü Meyarı hesabatındakı tövsiyələrin birbaşa icra edilməsi deyil, hesabatda dövlət-VCT əməkdaşlığı ilə bağlı qeyd olunan tövsiyələrin həyata keçirilməsi istiqamətində müsbət addım kimi qiymətləndirilə bilər.

VCT-lərin Azərbaycanda demokratikləşmə prosesinə, hüquqi və iqtisadi islahatlara, sosial rifaha, o cümlədən azlıqların, qadınların, uşaqların, əlillərin, məcburi köçkünlərin və qaçqınların insan hüquqlarının müdafiəsinə töhfə vermək potensialı var.

Bu hesabatda 11 sahə üzrə cəmi 33 tövsiyə müəyyən edilib. Prioritet tövsiyələr aşağıda sadalanır. Onların hamısı hökumətə və yaxud Milli Məclisə (qanunvericilikdə dəyişikliklərə ehtiyac olduqda) ünvanlanır:

Ədliyyə Nazirliyi, Parlament və hökumət müddətləri azaltmaqla və Ədliyyə Nazirliyi tərəfindən subyektiv yanaşmanı aradan qaldırmaqla VCT-lərin qeydiyyat prosedurunu sadələşdirməlidirlər;

1. Ədliyyə Nazirliyi və Parlament VCT-lərə münasibətdə qeydiyyat prosesində və onların fəaliyyətləri zamanı kommersiya qurumları ilə müqayisədə bərabər rəftarı təmin etməlidirlər;
2. Parlament ölçüsündən və dövriyyəsindən asılı olaraq VCT-lərin hesabat öhdəliklərini sadələşdirməlidir;
3. Prezident Administrasiyası regionlarda tədbirlərin keçirilməsi üçün icazə almaq tələbini ləğv etməlidir;

4. Ədliyyə Nazirliyi və Nazirlər Kabineti qrantların və ianələrin qeydiyyatını sadələşdirməlidirlər (məsələn, qeydiyyatla bağlı qərarlarda subyektivliyin aradan qaldırılması, prosesin əlçatan və sürətli olması üçün rəqəmsallaşdırılması və s.);
5. Parlament və Nazirlər Kabineti xidmət müqavilələrinin qeydiyyata alınması tələbini ləğv etməlidirlər;
6. Parlament və Nazirlər Kabineti kiçik ianələr (məsələn, ildə bir donora 200 AZN/110 avro) haqqında hesabat vermək tələbini aradan qaldırmalıdırlar.

# V. METODOLOGİYA

VCT Ölçü Meyarı Şərq Tərəfdaşlığı (ŞT) ölkələrində VCT-lərin fəaliyyət göstərdiyi mühitin mütəmadi və ardıcıl monitorinqini dəstəkləyir. O, həm qanunvericiliyi, həm də praktikanı qiymətləndirmək üçün 11 müxtəlif sahədə bir sıra standartlardan və göstəricilərdən (indikatorlardan) ibarətdir. O, beynəlxalq standartlara və ən qabaqcıl təcrübələrə əsaslanır. VCT Ölçü Meyarı ECNL-dən olan əsas ekspertlər qrupu və altı ŞT ölkəsindən olan yerli tərəfdaşlar tərəfindən hazırlanmışdır.

ECNL ŞT ölkələri və illər üzrə VCT-lər üçün müxtəlif sahələrdə əlverişli mühitin həm keyfiyyət, həm də kəmiyyət baxımından müqayisəsini təmin etmək üçün 2020-ci ildən etibarən RESIS metodologiya ekspertləri ilə VCT Ölçü Meyarı metodologiya paketinin uyğunlaşdırılması üzərində işləmişdir. Təklif olunan model elektron poçtu və onlayn tədbirlər vasitəsilə geniş tərkibli regional VCT Ölçü Meyarı mərkəzi ilə razılaşdırılmış və sınaqdan keçirilmişdir. Yenilənmiş müqayisə modeli vasitəsilə biz: (1) 11 sahənin hər birində vətəndaş cəmiyyəti üçün mühiti qiymətləndirməyi; (2) hər bir ölkədə illər üzrə inkişafın/tərəqqinin izlənilməsini təmin etməyi və (3) regional səviyyədə mühitləri müqayisə etməyi hədəfləyirik.

Ölkələrdəki tərəfdaşlar VCT Ölçü Meyarı mərkəzinin bir hissəsi olan digər VCT-lərlə birlikdə monitorinq prosesini həyata keçirmiş və ölkələr üzrə hesabat layihəsini hazırlamışlar. Onlar həmçinin hər bir ölkədə əsas yerli maraqlı tərəflərin ekspert nümayəndələrindən ibarət Məşvərət Şuraları yaratmışlar. Şura üzvlərinin iki əsas vəzifəsi var: təsviredici hesabatları nəzərdən keçirmək və təsviredici hesabatlar əsasında hər bir Standart üzrə ballar təyin etmək.

Hazırkı hesabat 2022-ci ilin yanvarından noyabrın 30-dək olan dövrü əhatə edir.

## Monitorinq prosesi

Monitorinq prosesi hədəf qrupları ilə görüşlərin keçirilməsi, müsahibələrin aparılması, medianın, sosial şəbəkələrin izlənilməsi, qanunların və qanun layihələrinin təhlili yolu ilə həyata keçirilmişdir.

Hesabat Şərq Tərəfdaşlığının bütün altı ölkəsi üçün birgə metodologiyaya uyğun olaraq layihənin Azərbaycandakı yerli tərəfdaşı MG Consulting tərəfindən hazırlanmışdır. Müəlliflər 8 müsahibə və iki hədəf qrupu ilə görüşlər (biri Bakıda fəaliyyət göstərən VCT-lər üçün, digəri isə regional VCT-lər üçün) keçirmişlər. Mətndə hədəf qruplarına istinadən qeyd edilənlərin mənbəyi mətnaltı qeydlərdə "Hədəf qrupu" kimi göstərilib.

Məlumatların toplanması və hesabatın yekunlaşdırılması dövrü arasında vətəndaş cəmiyyəti ilə bağlı baş vermiş mühüm hadisələr hesabatın "Qısa icmal" bölməsinə daxil edilmişdir. Lakin ballar təyin edilərkən bu hadisələr nəzərə alınmamışdır.

Ölkə üzrə təsviredici hesabatın layihəsi dekabrın 15-də Azərbaycandakı Məşvərət Şurasının üzvləri tərəfindən yenidən nəzərdən keçirilmişdir.

## Qiymətləndirmə prosesi

## Ballarla qiymətləndirmə prosesi

**Azərbaycanda ümumi ölkə balının azalması böyük ölçüdə regional səviyyədə bütün ölkə ballarının yenidən nəzərdən keçirilməsi prosesinin nəticəsi olmuşdur. 2021-ci ildə bütün ölkələr üzrə təqdim edilən bütün ballarla bağlı vəziyyətin qiymətləndirilməsindən sonra tədqiqatçılardan bəzi sahələr üzrə balları yenidən qiymətləndirmələri xahiş edilmişdir, çünki Azərbaycanda vəziyyət digər ŞT ölkələrindəki vəziyyətdən daha yaxşı hesab edilməmişdir. Bu cür yenidən qiymətləndirmə ən çox 6-cı sahəyə (İfadə azadlığı), 9-cu sahəyə (Dövlətin dəstəyi) və 10-cu sahəyə (Dövlət-VCT əməkdaşlığı) təsir göstərmişdir.**

Ölkə üzrə tədqiqatçılar və Azərbaycandakı Məşvərət Şurasının 9 üzvü hesabat dövründə həm Qanunvericilikdə, həm də Praktikada hər bir Standart üzrə baş vermiş dəyişiklikləri qiymətləndirmişlər. Sonra hər bir standart üzrə yekun bal tədqiqatçıların verdiyi balların 50 faizinin və Məşvərət Şurası üzvlərinin verdiyi balların orta hesabla 50 faizinin iştirak etdiyi düstur əsasında hesablanmışdır. Daha sonra hər bir sahənin balı hər bir standart üzrə yekun balların orta kəmiyyəti kimi hesablanmış və təqdimat məqsədləri üçün onda bir (1/10) kəmiyyətlər səviyyəsində yuvarlaqlaşdırılmışdır.

Qiymətləndirmə proseduru üçün 7 ballıq şkaladan istifadə olunur. Şkalanın ekstremal kəmiyyətləri ekstremal/ideal vəziyyətlər və ya mühitlər kimi qəbul edilir. Məsələn, (1) son dərəcə əlverişsiz (avtoritar), (7) isə VCT-lər üçün son dərəcə əlverişli (ideal demokratik) mühitdir. VCT Ölçü Meyarı aləti, qiymətləndirmə prosesi və hesablama haqqında ətraflı məlumat üçün lütfən https://csometer.info/ saytına daxil olun.

